

# Aləmin aləmindən aləmə

"Qatarda 18 əhvalat"... Bu, Aləm Kəngərlinin ötən il nəşr olunan hekayələr kitabının adıdır. Çox az müəlliflərin bəxtinə düşür ki, bir iki kitabı ilə (hətta Vidadi Məmmədov kimi müəlliflərin payına düşür bir-iki hekayə) ədəbi mühitin düşüncə mərkəzində yer tutur. Hansısa bir istedaddan qeyri amil müəllifi ədəbi düşüncə mərkəzinə bir-iki kitabla gətirə bilməz. Bəli, bu yalnız istedadın göstəricisi ola bilər.

Elə yazıçılar var ki, onların yazdıqları ayrı-ayrı əsərlər kimi xarakterizə oluna bilər. Və eyni zamanda həm də yaradılanlar həyatın axarını təqdim etmək baxımından bir-birinin davamı ola bilər; Aləm Kəngərlinin "Qatarda 18 əhvalat"ı kimi.

Qatar həyatın hərəkətini simvollaşdırır. Şübhəsiz müəllif bu obraza təsadüfi müraciət etməyib. Doğmalarını və yadları bu qatarda gördüyü kimi, ədəbi qəhrəmanlarını da bu qatarda görür; həyəcanlar, sevgilər, ayrılıqlar, yenidən görüşlər, ötən günlərin şirin və acı xatirələri... sanki bu qatarın ahəngdar taqqıltılarının morze əlifbası ilə yazılan mətinlərdir.

Həyatın diktəsində elə mətnlər var ki, onu hər kəs anlaya bilmir. Amma yazıçı hər hekayəsinin əvvəlindəki ahəngdar taqqıltıların sədaları ilə gələn səsi daxili monoloqunun əvəz edicisinə çevirir: "Yol getməyi xoşlayıram". Birinci monoloqun ilk cümləsidir. İnsan yol getməyi nə üçün xoşlaya bilər. Yol həyatın təzə səhifəsidir. Bəlkə də heç vaxt rast gəlmədiyin şirin bir əhvalatın başlanğıcıdır. İstər oluma, istərsə də ölümə doğru aparan bir qismətdir. Bütün hallarda həyatına gələn yeni bir əhvaldır. O başqa məsələdir ki, bu səfər sənin həyatında yeni bir səhifənin başlanğıcı olacaq, yoxsa...

Bütün hallarda sən yollardasan, sən qatardasan. Bircə o qalır ki, keçdiyin yollarda, səni aparan qatarda gördüklərini sözə gətirə biləsən və o sözün içində Belinskisayağı desək "həyatın bir parçası" ola.

"Qatarda 18 əhvalat"... Aləmin aləmindən aləmə yazı ilə gələn morze mətnləridir. Hər kəs bu mətnlərin içindən öz taleyinə uyğun bəxtinin çalarını göstərən hansısa bir rəngi özününkü bilər.

*(Davamı var)*

***Ə.R.XƏLƏFLİ***

***11.03.2020***

Kredo 2020.- 11 mart.- S.1.